UOT 555 N 689 P

**Z. R. NOVRUZOVA**

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi**
**E-mail: zeminenovruzova.533@gimail. com**

# PLANLAŞDIRILMIŞ DİNLƏMƏ FƏALİYYƏTLƏRİ

Sinif tərtibatı, dinləmə vərdişlərini inkişaf etdirmək və onların qavraması üçün lazım olan ən müasir metodlar, individual, müstəqil və qrup şəklində öyrənmə prosesləri haqqıda məlumat verilir.

**Açar sözlər:** dinləmə bacarıqları, individual öyrənmə, müstəqil öyrənmə, texniki vəsaitlər, planlaşdırılmış dinləmə fəaliyyətləri, sinif tərtibatı, öyrənmə prosesi, lingvistik xüsusiyyətlər.

**Dinləmə bacarıqlarının qavranılması.** Tələbələrin İngilis dilində dinləmə vərdişlərini inkişaf etdirmək üçün onların qavramasının ən yaxşı metodları seçilməlidir. Bəzi tələbələr dərs müddətində yaxşı öyrənmək qabliyyətinə malikdirlər, ancaq elə tələbələr var ki, onlar özləri sərbəst öyrənməyi üstün tuturlar. Odur ki, əgər tələbələr düzgün üsullarla öyrənməyə başlayırlarsa, onlar tezliklə İngilis dilində dinləmə bacarıqlarını inkişaf etdirə bilərlər. Bunun üçün ilk növbədə, onların İngilis dilində bilik səviyyələri müəyyən olunmalıdır.

İngilis dilini öyrənmə səviyyəsindən asılı olmayaraq düzgün tərtibatların seçilməsi çox vacibdir. Belə ki, dinləmədə bu daha əsasdır, çünki dinləmə dil öyrənmədə elə bacarıq növüdür ki, o diqqət tələb edir. Aşağıda dil öyrənmə prosesinnin əsas növləri göstərilmişdir:

**1. Sinif tərtibatı.** Məlum olduğu kimi, sinif otağı müəllim və tələbələrin müntəzəm olaraq görüşdüyü yerdir. Ola bilsin ki, bəzi tələbələr digər tələbələrlə müzakirə aparmağı xoşlayırlar və təklikdə fikrlərini cəmləşdirə bilmirlər. Buna görə də müəllim sinifin tərtibatı zamanı buna diqqət yetirməsi vacibdir;

**2.İndividual (fərdi) öyrənmə.** İndividual öyrənmə dərslərində müəllim və bir tələbə olur. Bu ona görədir ki bəzi tələbələr öyrənmə müddətində ətrafındakı digər tələbələrdən çəkinir və özlərini sərbəst hiss etmirlər. İndividual öyrənmədə onlar üçün müəllimin diqqətini çəkmək və ona sual vermək daha asan olur və onların danışıq müsahibləri yalnız müəllim olur;

**3.Müstəqil öyrənmə.** Müstəqil öyrənmə tələbələr, onların sərbəst seçdikləri varianta uyğun olur. Onlar digər tələbələrlə birlikdə öyrəndikdə fikirlərini cəmləşdirə bilmirlər və müstəqil vaxtlarında öyrənməyi üstün tuturlar. Onlar formal sinif otaqlarında öyrənməkdənsə, müxtəlif yerlərdə öyrənməyi daha effektiv hesab edirlər ki, bu da həqiqətən öz müsbət nəticəsini verir. Çünki onlar istənilən yerdə (avtobusda, qatarda, parkda və s.) dinləyir və müsbət nəticələr əldə edirlər.

Tələbələrin İngilis dilində dinləmə bacarıqlarının yüksəldilməsi üçün tədris prosesində müxtəlif üsullardan istifadə edilir. Onlar eyni zamanda hansı üsulun onlar üçün daha münasib olduğunu müəyyən etməlidirlər. Bir halda ki, tələbələr öyrənmə tərtibatlarını, üsullarını sərbəst müəyyən edə bilirlərsə, onda müəllim onlara dinləmə prosesi üçün məsləhətlər verə bilər.

Əgər tələbələr İngilis dilinində dinləmə bacarıqlarını sinif otaqlarında daha yaxşı öyrənə bilirlərsə aşağıda təqdim olunan məsləhətlər onların dinləmə bacarıqlarının inkişafına kömək edə bilər:

**-dinləmədə texniki vəsaitlərlə qulaq asmaq.** Əgər tələbələrin dərs müddətində şifahi İngilis dilində olan sözləri qavramaqda problemləri varsa, onlar bu sözlərə texniki vəsaitlərlə qulaq asa bilərlər. Belə dinləmələr vasıtəsi ilə onlar artıq dinləmə vərdişlərini inkişaf etdirmiş olurlar, müəllim və digər tələbələr onlara daha yaxşı qavramaqda kömək edə bilərlər. Lazımdır ki, onlar dinləyərkən sözlərin tonuna və tələffüzünə diqqət yetirsinlər və bu onlara çətin sözləri daha aydın





və asan tələffüz etməkdə kömək edə bilər. Sonda onlar məşğələlər zamanı deyilən hər bir sözü asanlıqla anlayacaqlar;

**-məşqələlərdə dinləyərkən sözlərin siyahısını tərtib etmək.** Sərbəst dinləmə ilə məşqul olan müddətdə tez-tez eşidilən sözlərin siyahısını yazmaq və onları dinləmək daha məqsədəuyğundur. Eyni zamanda, siyahıda eşidilişn sözləri qeyd edərək dərs müddətində eşidə biləcəkləri sözləri yeri gəldikcə əlavə etməlidirlər. Məsələn, əgər onların mövzusu səyahət haqdadırsa müəllim və digər tələbələr növbəti dərsdə səyahət haqqında sözlərdən istifadə edəcəklər və onlar bu siyahıya dinləmək üçün səyahətə aid sözlər əlavə edə bilərlər. Onlar sözlərin məzmununu və cümlədə necə işlənməsini başa düşmək üçün də dinləyə bilərlər. Aktiv dinləmə prosesindəki çalışmalar onlara verilmiş sözlərin niyə işləndiyini qavramağa kömək edər;

**-kömək üçün yoldaşlarına müraciət etmək.** Dərs müddətində dinləmə bacarıqlarını birlikdə öyrənən tələbələr əsasən müəllimin köməyi ilə və eyni zamanda bir-biriləri ilə ünsiyyət yaradaraq öyrənirlər. Çünki onlar xarici dildə ünsiyyətdə olur və birbaşa öyrəndiklərini təcrübədən keçirmiş olurlar. Onlar xarici dildə danışıq, mətn, hekayə, müsiqi, məqalə və s. kimi dinləmə materiallarına qulaq asır və birlikdə müzakirə edirlər. Bu halda məlum isəyər ki, onların hamısı eyni fikir deyil müxtəlif fikirlər irəli sürürlər, anlaya bilmədiklərini bir-birindən öyrənsilər və əgər kömək istəsələr müəllimə də müraciət edə bilərlər. Bütün bunlar müsbət hal kimi qarşılıqlı öyrənməyə gətirib çıxarır;

**-diqqətin dinləmə materialının formasına yönəldilməsi.** Diqqətin dinləmə materialının tərtib olunmuş hazır formasına yönəldilməsi prosesində əsasən aşağıdakı çalışma növlərindən istifadə olunur:

-tələbələr dinləmə materialında hadisələrin gedişinə diqqət yetirirlər və cümlələri gedişata uyğun sıralayırlar;

-dinləmə materialındakı yeni sözləri tapır və onların mənalarını ızahları ilə uyğunlaşdırırlar;

-dinləmə materialındakı söz birləşmələrini uyğunlaşdırırlar;

-dinləmə materialına aid tərtib olunmuş suallara cavab verirlər;

-dinləmə materialındakı hansı fikirlərin düzgün və ya səhv olduğunun müəyyən edirlər;

-mətnə münasibət. Bu çalışma növlərindən sonra müəyyən olur ki, tələbələrin fikrini dinlənilən materialın məzmununa yönəldilməsi çox vacibdir. Çalışma, onların gündəlik yaşayışlarında qulaq asdıqları hər hansı bir məlumat da ola bilər. Ona görə də bilmək vacibdir ki, onlar hansı səbəbə görə qulaq asırlar:

a) bu eşitdikləri hər hansı məlumata cavab kimi müzakirə ola bilər;

b) onlar verilmiş cavabla razıdırlar və ya razı deyillər;

c) onlar nəyi eşitdiklərinə əmin deyillər;

d) onların eşitdikləri hər hası məlumata uyğun gəlmir. Bu məqamda onu da qeyd etmək yerinə düşərdi ki, tapşırıqların şərti onlara dəqiq izah olunmalıdır;

**-dil analizləri.** İkinci dinləmədən sonrakı çalışma növləri tələbələri mətnin lingvistik xüsusiyyətlərinə cəlb edir. Bu tələbələrin dil bacarıqlarının inkişaf etdirilməsi müddətində çox vacibdir. Ancaq onların dinləmə bacarıqlarını inkişaf etdirmək üçün çox vacib deyil.

Kursantlarda müəyyən səviyyədə inkişaf olduğundan, bu mərhələdə onların artıq fikirlərini cəmləşdirib çalışmalar üzərində işləmələri daha məqsədyönlüdür. Çünki artıq onlar dinləmə mətnini anlamışlar və müxtəlif mənaları ifadə edən formaları daha asanlıqla tapacaqlar.

**SUMMARY**

**Z. R. NOVRUZOVA**
**Azerbaijan Higher Military School named after Heydar Aliyev**
**E-mail: zeminenovruzova.533@gimail. com**

**PLANNING LISTENING ACTIVITIES**

Information is provided on classroom design, the most up-to-date methods needed to develop listening comprehension skills, and individual, independent, and group learning processes.

**Key words**: Listening skills, individual learning, self study, technical equipment, planned listening activities, auditory equipment, learning process, linquistic features.

**РЕЗЮМЕ**

**НОВРУЗОВА З.Р.**
**Азербайджанское высшее военное училище имени Гейдара Алиева**
**Электронная почта: zeminenovruzova.533@gimail. ком**

**ПЛАНИРОВАНИЕ ДЕЯТЕЛЬНОСТИ ПО ПРОСЛУШИВАНИЮ**

Предоставляется информация о дизайне классной комнаты, самых современных методах, необходимых для развития и понимания навыков слушания, а также о процессах индивидуального, независимого и группового обучения.

**Ключевые слова:** Аудирование, индивидуальное общение, самостоятельное обучение, обучение, техническое оборудование, запланированное аудирование, классное оборудование, процесс обучения, лингвистические особенности обучения.

*Məqalə redaksiyaya daxil olmuşdur: 17.06 21*